Türküstan 11 - 17 aprel 2023-cü il



# Ömür bahar deyil...

## Aprel şəhidlərimizin xatirəsinə ehtiramla



Hacı Cəfər Cəfərli
Yazıçı-publisist

***Murad Telman oğlu Mirzəyev 1976-cı ilin 31 martında Sabirabad rayonunun Muğan Gəncəli kəndində anadan olub. Hələ uşaq yaşlarında hərbçi olmağa can atan Murad anasının razılığı ilə sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verib. 1991-1994-cü illərdə bu hərbi liseydə təhsil alan Murad Mirzəyev daha sonra təhsilini Türkiyədə davam etdirib və 1998-ci ildə ali hərbi məktəbi bitirib. O, Amerika Birləşmiş Ştatları, Rumıniya və İordaniyada baş tutan hərbi təlimlərə qatılıb.***

***Murad Mirzəyev Amerikada ranger kursunu bitirdikdən sonra vətənə qayıdır. O, Gəncə şəhərində "N" saylı hərbi hissələrin birində hərbi xidmətə başlayır. Sonralar isə Xüsusi Təyinatlı Qüvvələrin zabiti olur.***

Xidmətə başlamasının 10-cu illiyində Murad Mirzəyev "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif olunur və bu mükafat Murad Mirzəyevin ilk mükafatı olur. Murad Mirzəyev "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalları və "Qızıl Ulduz" medalı ilə təltif olunmuşdur.

Murad Mirzəyev 2016-cı il Aprel döyüşlərində komandiri olduğu qrup ilə birlikdə Talış kəndi ətrafındakı yüksəklikləri düşməndən azad etmiş və baş verən qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olmuşdur. Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, Xüsusi Təyinatlı Qüvvələrin zabiti Murad Mirzəyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

***Murad Mirzəyev 2004-cü ildə Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsində təhsil alan Fizzə Mirzəyeva ilə ailə həyatı qurdu. Onun 2009-cu il təvəllüdlü Nurlan və 2011-ci il təvəllüdlü Dəniz adında iki övladı yadigar qaldı.***

***Tanrı ona həssas, zərif, kövrək, geniş bir ürək bağışlamışdı. O, canından əziz sevdiyi bu vətən torpağını Tanrı sevdası ilə sevən kişilərin - el ağsaqqalı Cəlil babadan, təşkilati və rəhbərlik bacarığı ilə hər kəsə nümunə olan Surxay əmisindən, qəlbi daim vətən eşqi ilə çırpınan, gecə-gündüz Turan sevdası ilə ürəyi döyünən əmisi oğlu İlhamdan həyat dərsi aldığı üçün,-"Mənim vətənim, Mənim Azərbaycanım!"- deyib qürrələnmək haqqı olan kişilərdəndir.***

Murad Telman oğlu Mirzəyev. Murad adının açması istək, məqsəd, məram, kam deməkdir. Anadan olduğu 31 mart 1976-cı il tarixdən kam almağa məqam axtaran aşiq 19 Aprel 2016-cı ildə öz istəyinə, şəhidlik zirvəsinə qovuşdu. Necə ki, deyilmişdir: "Balıq suyun aşiqidir, pərvanə isə odun. Su balığa həyat, od isə pərvanəyə ölüm deməkdir".

Bu dünya vətəni candan əziz tutan Murad kimilərə bir sınaq meydanıdır, şəhidlik isə son və əbədi olan zirvədir-məkandır. Muradı tanıyanlar, bütün tanış-bilişlər onun həyat sevgisindən, Vətənə bəxş etdiyi məhəbbətindən ağızdolusu, fəxrlə danışırlar. Bu istək, bu sevgi Muradı 9-cu sinfi bitirdikdən sonra 1991-ci ildə C. Naxçıvanski adına hərbi məktəbə gətirir.

***Yaşanan ömürlər müxtəlif olur. Elə ömürlər var ki, yalnız o şəxsin özünə, yaxınlarına məxsusdur. Elə ömürlər də var ki, şəxsi həyatından çıxaraq elə obaya, vətənə aid olur. Böyük Allah belə insanları yaratmaqla onları bu dünyanın zinəti, təbiətin tacı, çələngi edir. Ulu Tanrının ən şah əsəri Murad və onun kimi qəhrəman vətən övladlarıdır.***

Muradı daim ziddiyyətli və ürək parçalayan bir sual düşündürürdü. O, bütün qəlbi ilə hiss edirdi ki, xalqın böyük hissəsi eynilə onun kimi narahatlıq içindədir. Dostları, tanışları bir-biri ilə görüşəndə hal-əhval tutmazdan əvvəl "bu işlərin axırı necə olacaq, Qarabağ məsələsi nə vaxt öz həllini tapacaq?"-deyə həyəcan və narahatlıqla xəbər alırdılar. Həqiqətin ilk və çox müqəddəs cəhəti budur ki, böyük həsrətlə gözlədiyimiz, həddsiz ümid bəslədiyimiz dövlət müstəqilliyimiz və ərazi bütövlüyümüz şübhə altına salınır, düşmənlərimiz min hoqqadan çıxır, günahsız adamları, azyaşlı uşaqları, qız və gəlinlərimizi girovluqda saxlayırlar. Müasir dünyanın insan hüquqlarına hörmət konsepsiyası fonunda belə ağlasığmaz amansızlıqlar bir an da gənc, yeniyetmə Muradı rahat buraxmırdı. Murad daim vətəninə, xalqına olan xəyanətləri, xüsusən erməni canilərinin övladlarımızı qırıb, evlərini qarət edib yandırmalarını, balaca uşaqları 1918-ci ilin mart ayında Bakıda divarlara mismarlamaları, hamilə anaların qarnını yırtıb uşaqlarını tüfənglərin nizələrinə taxmaları, 1905-1906-1918-ci illərdə Bakıda, 1916-1918-ci illərdə Ürmidə, Xoyda, Şamaxıda, Qubada, Gəncədə, Salyanda, Qarabağda, Təbrizdə qırdıqları qadınlar, körpələr, qocalar, yandırılan, viran edilən evlər və dağılan ailələr barədə düşünərkən bərk sarsılırdı: "Ey, mənim doğma vətənim! Sən öz varlığın, gələcəyin, azadlığın və istiqlalın uğrunda tarix boyu vuruşmuş, mübarizə aparmısan. Saysız-hesabsız qurbanlar vermisən. O qurbanların qanından göyərən bağrı qara lalələr dağ başını bürüyüb, azadlıq mücahidlərinin ruhunu oxşayırlar. Odlar yurdu, canım Azərbaycan, səni heç vaxt, heç zaman yalqız buraxmamaq, sənin bir qarış torpağın üçün qanımı halal etmək övladlıq borcumdur. Mənim varlığım, ruhum sənsən, hər anım səndən asılıdır. Sənin sevincin sevincim, kədərin isə kədərimdir. Məni isti ağuşunda bəsləyən, mənə həzin ana laylası çalan əqlim, şüurum, vətənim hara getsəm, gözüm səndə, nə danışsam, sözüm səndə. Sən mənim fəxrim, qeyrətim, şövkətim, sərvətimsən. Sən mənim dilimin əzbəri, qəlbimin açarısan. Sən ulu Tanrının ən qiymətli sərvətlərindən biri, onun lütfünün təzahürüsən. Nemətlərinin sayı hesabı yoxdur. Nemətlərin ac qurdların, yağı düşmənlərin, yağlı quyruq gəzən canavarların ta qədimdən ağızlarının suyunu axıdıb. Tarixlərdən öyrənmişəm, səni qarət ediblər, dağıdıblar, talayıblar. Bizə qardaş deyib sərvətini talan edib, torpaqlarına göz dikiblər. Dörd bir yandan canavarlar üstünə hücum edib, diş qıcadıblar. Dağlarının başını çiskin, duman, çən alıb. O duman hələ də çəkilmək bilmir. Atalarımız yaxşı deyib: "Sevdanı pul, savaşı xəncər kəsər!". Hal-hazırda məğlub durumdayıq, bizim başımızı dik tutub gəzmək haqqımızı əlimizdən alıblar. Torpaqlarımızın, baba əmanətimizin 20 faizi mənfur erməninin murdar ayağı altında qaldıqca, bizim qürurlanmağa, sevinməyə kişiliyimiz yol verə bilməz. Məğlubiyyət var ki, gücsüzlükdən doğub. İradəsizlikdən də məğlubiyyət mümkündür. Amma bütün uğursuzluqların bir dadı, acısı olur. Sonsuz iztirab, uzun-uzadı məyusluq, məğlubiyyətdən sonrakı ruh düşgünlüyü, özünə qapınma halları, peşiman-peşiman faydasız dizə döymələr...

Bu daxili çarpışmalar, gecəli-gündüzlü düşmənin burnunu necə əzmək haqqında fikirləşən Murad 1994-cü ildə C.Naxçıvanski adına hərbi məktəbi fərqlənmə diplomu ilə bitirdi. Bu hərbi məktəb Murada çox şey vermişdi. Murad hərbi sirlərlə yanaşı, dünyada baş verən ictimai-siyasi hadisələri izləyir, öyrənirdi ki, dünya binnət olandan Allahın bizə nəsib etdiyi sərvətlərə, tükənməz bərəkətlər dəfinəsi olan yurdumuza həsəd aparanlar, paxıllıq edənlər, göz dikənlər çox olub. Millətimizin təfəkkür ensiklopediyası olan "Avesta"da olduğu kimi, bu gün də xeyirlə şərin mübarizəsi davam etməkdədir. Şərin simvoluna çevrilmiş ermənilər bu gün də öz bəd əməlləri ilə yurdumuzu bölməyə çalışır, öz şər-böhtanları ilə xalqımıza gözdağı verməyə cəhd göstərirlər:

**Əzizim Ordubada,**
**Yol gedir Ordubada.**
**Sərkərdə pis olarsa,**
**Ordu tez gedər bada.**

Yaxşı nümunəvi hərbçi olmaq üçün qarşıdakı uzun yolun başlanğıcında hər cür təlim-məşq toplantılarında hərbin sərt qanunlarına boyun əyməli, iradə göstərilməlidir. Bunun üçün hərbi biliklərə yiyələnmək lazımdır. Murad belə də edir. Hərbi məktəbi bitirən kimi, 1994-cü ilin iyun ayında Türkiyə Ali Hərbi Qara qoşunları məktəbinə (Kara Hərbi okulu) daxil olur. Bu ali məktəbdə özünü əsl ixtisaslı hərbi kadr kimi göstərir. Ona təhsildəki uğurlarına görə metodist ixtisası verilir. Diplomu və xatirə "Qılınc və məzun üzüyü" Ümummilli Liderimiz Heydər Əliyev və o dövrdə Türkiyəyə rəhbərlik etmiş Süleyman Dəmirəl tərəfindən təqdim edilir. Murad burada da fərqlənə bilmişdi. Onunla eyni vaxtda təhsil alan 600 nəfər yerli və əcnəbi tələbələr arasında birinci olmuş, buna görə də "Onur Başqanı" təyin olunmuşdur. Elə həmin ilin sentyabrından 3 aylıq Egirdir Dağ Komando Məktəbində kurs keçir. 1999-cu ilin yanvar ayında İstanbulda yerləşən Tuzla Piyada məktəbində kursa başlayıb, həmin ilin iyun ayında kursu uğurla bitirir. Amma bütün bunlar artıq mətinləşmiş, kişiləşmiş Muradımızın murada çatmasına sanki kifayət etmir. O, 1999-cu ilin iyun ayında Türkiyə Silahlı Qüvvələrinin 4-cü Motoatıcı briqadasında tağım komandiri vəzifəsində xidmətə başlayır.

***"Məqsədinə çatmaq üçün səhranı keçməyin gərəkdirsə, illərlə yoluna davam et, tikanların açdığı yaralara fikir vermə". Hansısa dahinin bu müdrik fikirləri sanki Muradın həyat amalına, devizinə çevrilmişdi. Murad artıq büsbütün dərk edirdi ki, siyasət insanlar üçün deyil, insanlar siyasət üçündür. Nəyə və kimə gərəkdir, xəyallarda qartala dönmək, əgər həyatda koramal kimi sürünəcəksənsə. Muradın uğurlarını addım-addım izləyən Azərbaycanın Müdafiə Nazirliyi onu ölkəmizdə xidmət etməyə çağırır.***



İlk dəfə hərbi xidmətə Gəncədə yerləşən "N" saylı hissədə başlayıb. Murad orada bir müddət işləyəndən sonra çoxdan arzusunda olduğu Xüsusi Təyinatlı Hissədə xidmətə keçir. 1999-cu ilin oktyabr ayında Azərbaycan Respublikası Müdafiə Nazirinin əmrinə əsasən, Motoatıcı tağım komandiri vəzifəsində xidmət edir. 2000-ci ildən 2016-cı ilə kimi Xüsusi Təyinatlı Hissədə qrup komandiri vəzifəsindən hərbi hissə komandiri vəzifəsinə qədər yüksəlir. Gözləmək olardı ki, Murad artıq yuxarıda sadaladıqlarımızla kifayətlənəcək, ancaq bu, belə olmadı. Murad elm dəryasından damla götürdüyünü güman edirdi. Fəzilətlərin, sadəliyin, elmi biliklərin insan həyatının baharı olduğunu, əxlaqi incəliyin, ləyaqətin başlıca şərt olduğunu düşünürdü. Sanki zaman, vaxt ona azlıq edirdi. Çox tələsirdi. Ömrün azlığından gileylənərək həyatın insana əbədi ömür qazanmaq üçün bir fürsət olduğunu düşünürdü.

***Bu fikir, bu amalla Murad 2005-2007-ci illərdə ABŞ-ın Virçiniya Ştatında ingilis dili və xüsusi təyinatlılar üçün nəzərdə tutulan ən çətin "Banger" kursunun normativlərini amerikalı ingilislərdən də cəld yerinə yetirən yeganə azərbaycanlı olmuşdur. Sonrakı illərdə Türkiyə, Rumıniya və İordaniya Krallığında keçirilən kurslarda iştirak edir və bu kursları da üstün dərəcə ilə bitirir. Xidmət etdiyi illərdə Azərbaycanın Silahlı Qüvvələrinin ən peşəkar və ən yüksək hazırlıqlı zabitlərindən biri kimi qiymətləndirilir. Yeri gəlmişkən, demək lazımdır ki, bu müddət ərzində Murad türk, rus, ingilis, erməni dillərini mükəmməl öyrənmişdi. Niyyəti mənzilə yaxınlaşırdı. Murad döyüşə atılmaq, düşmənə layiqincə cavab vermək eşqi ilə gecə-gündüz çarpışır, müxtəlif elanlar cızır, qələbənin lap yaxında olduğunu hiss edirdi. Belə demək mümkünsə, həsrətlə, intizarla, səbirsizliklə Ali Baş Komandanın əmrini gözləyirdi. Hələ orta məktəbdə oxuyarkən ədəbiyyat müəllimindən qəfildən soruşmuşdu:***

(ardı gələn sayımızda)